# İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

1.1. İşsizlikdən sığorta fondunun 2026-cı il üzrə xərcləri 266 400 000,0 manat məbləğində təsdiq edilir. Bu xərclərin maliyyələşmə mənbəyi aşağıdakılardır:

1.1.1. işsizlikdən sığorta fondunun 2026-cı il büdcəsinin gəlirləri 238 300 000,0 manat;

1.1.2. işsizlikdən sığorta fondunun 2026-cı il yanvarın 1-nə yaradılmış ehtiyatından 2026-cı ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən 28 100 000,0 manat.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2026-cı ildə işsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi o cümlədən: | 236 600 000,0 |
| 2.1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 25 950 000,0 |
| 2.1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 25 950 000,0 |
| 2.1.3. | qeyri-büdcə sektoru üzrə | 184 700 000,0 |
| 2.2. | Sair gəlirlər | 1 700 000,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, işsizlikdən sığorta fondunun 2026-cı il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | İşsizliyə görə sığorta ödənişləri | 28 000 000,0 |
| 3.2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 26 000 000,0 |
| 3.3. | Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 1 500 000,0 |
| 3.4. | Əmək yarmarkalarının, əmək birjalarının təşkili | 500 000,0 |
| 3.5. | Haqqı ödənilən ictimai işlərin təşkili | 3 700 000,0 |
| 3.6. | Özünüməşğulluq tədbirlərinin təşkili | 77 000 000,0 |
| 3.7. | Sosial iş yerlərində işçilərin əməkhaqlarının bir hissəsinin maliyyələşdirilməsi | 6 000 000,0 |
| 3.8. | Peşə standartlarının hazırlanması | 1 000 000,0 |
| 3.9. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri | 68 700 000,0 |
| 3.10. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri | 50 000 000,0 |
| 3.11. | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün kvotadan əlavə iş yerlərinin yaradılması | 1 000 000,0 |
| 3.12. | Sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi | 2 000 000,0 |
| 3.13. | Qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv məşğulluq tədbirləri | 1 000 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

İşsizlikdən sığorta fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında qalan sərbəst vəsait "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq növbəti ilin xərclərinin maliyyələşdirilməsinə və (və ya) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən investisiyaya yönəldilir.

**Maddə 5.** Bu Qanun 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2025-ci il*

Azərbaycan. - 2025.- 30 dekabr (№ 274).- S.9.